Salam mənə çox yaxın, eyni zamanda olduqca uzaqda yaşayan sevgili dost.

Mən Meri, əsgər bacısıyam. Ümidvaram ki, bilirsən əsgər bacısı, əsgər qardaşı, əsgər dostu olmaq nə deməkdir. Mən sərhəddən pis xəbər eşitmək qorxusu ilə yatmaq istəmirəm. Mən hər dəfə qardaşımla danışanda güllə səsləri eşitmək istəmirəm, çünki o güllə səsləri bizim zənglərimizi yarımçıq qoyur. Sənə yazmağımın əsas səbəbləri bunlardır. Mən bunu böyük sevinc və həyacanla yazıram, çünki bilirəm ki, qonşu ölkəsində məni eşidən, mənim fikirlərimi bölüşən biri var. Ola bilər ki, sən mənim bəzi fikirlərimlə razılaşmayasan, amma inan vacib olan odur ki, biz ikimiz eyni məqsəd naminə birləşmişik, və bu məqsəd sülh həllinə nail olmaqdır.

Sülh nədir?

Sülh terminini hərə öz təbirincə izah edə bilər, lakin fikrimcə hər kəsin fikri eyni ideologiya aparıb çıxarır. Biz hamımız öz tariximizi yaxşı bilirik. Biz çoxlu şey itirmişik, bəlkə də bəzi şeylər əldə etmişik, fəqət bu nailiyyətlər insan həyatı bahasına oldu. Mən düşünmürəm ki, dünyada maddi elə bir şey, elə bir konflikt elə mənfəət mövuddur ki, insan həyatından daha bahalı ola.

Biz əcdadlarımızın elədikləri işin günahkarı deyilik, lakin onların nəsilləri olaraq cavabdehlik daşıyırıq. Bəlkə onlar da bizim kimi müharibə istəməyiblar, lakin bəzi şərtlər, bəzi insanlar onları müharibə etməyə təhrik edib. Gələcəkdə baş verəbiləcəklərdən cavabdeh olan bizik, gələcəkdə nə olacağına biz qərar verəcəyik. Onda niyə xeyirxahlıq etməyək, niyə xeyirxah olmayaq.

Biz əcdadlarımızdan müharibə irsi almışıq, əminəm ki, sən də istəməzsən ki, övladlarımıza dahşətli müharibəni miras qoyaq. Təcrübə göstərir ki, biz əmin–amanlıqda yaşaya bilirik, onda niyə elə də yaşamayaq.

Sülhə nail olmaq üçün ilk və vacib addımı biz artıq atmışıq, biz bir– birimizə qulaq asmağa hazırıq, bu ən önəmli şeylərdən biridir.

İkincisi, keçmişi keçmişdə qoyub indiki zamanla yaşayaq. Keçmişə baxmayaq, günahkarlar axtarmayaq. Mən yuxarıda qeyd etmişəm ki, biz dədə–babalarımızın elədikləri üçün günahkar deyilik, lakin indi biz də onların etdiklərini etsək, biz də günahkar olacağıq. Biz gələcəyə baxmalıyıq, nikbin olmalıyıq, bizi addım–addım sülhə aparacaq yeni proqramlar hazırlamalıyıq.

Üçüncü önəmli addım odur ki, sərhədləri təmizləməliyik. Əgər göydə ulduzlar arasında sərhədlər yoxdursa, niyə insanlar yerdə dövlətlər arasında sərhədləri bağlayırlar. Sərhəd xətlərini açmaqdan əvvəl biz ürəklərimizdəki sərhədləri açmalıyıq ki, sevgi, xeyirxahlıq, sülh dünyaya yayılsın. Odur ki, gəl nəinki sərhədlər daxilində həmçinin sərhədlərdən kanarlarda əmin– amanlığı səpələyən sülh göyərçinləri biz olaq. Uzaq olmayan gələcəkdə mən gözəl Azərbaycana qonaq gələrəm, sən isə gözəl Ermənistana, o zaman biz uzun–uzun danışarıq. O zaman sülhə nail olmaq naminə atdığımız addımları iftixarla yada salarıq. Yeni nəsil, eyni zamanda savaşan nəsil üçün nümunə olaraq sübut edərik ki, sülhə silahsız da nail ola bilərik.

Ən xoş sülhpərvər arzularla….

Sənin dostun Meri